# ƏLİYEV ƏLƏKBƏR HƏSƏN OĞLU



Əliyev Ələkbər Həsən oğlu 22 dekabr 1955-ci ildə Qubadlı rayonunun İşıqlı kəndində dünyaya göz açmışdır. 1972-ci ildə Muradxanlı kənd orta məktəbini bitirib, Sumqayıt Politexnik Texnikumuna daxil olmuşdur. Təhsilini başa vurduqdan sonra iki il Sovet Ordusu sıralarında xidmət etmişdir. O, Vətənə döndükdən sonra Qubadlı rayon Kimya Birliyində çalışır. Bir müddət sonra doğulduğu kəndə qayıdır və kənd camaatının istəyi ilə sovxoz direktorunun müavini vəzifəsinə təyin edilir. Ermənilərin Azərbaycan torpaqlarına təcavüzə başladığı dövrdə Ələkbər özünümüdafiə dəstəsi yaradaraq doğma torpağın müadafiəsinə qalxdı. O, döyüşlərdə əsl qəhrəman kimi vuruşurdu. İgid döyüşçü Türklər, Səfiyan, Suarası kəndlərində gedən döyüşlərdə onlarla erməni yaraqlısını məhv etmişdi. Laçın rayonunun Suarası kəndində ağır ölüm-dirim döyüşləri gedirdi. 7 avqust 1992-ci il tarixdə Ələkbər Əliyev öz dəstəsi ilə həmin kəndə köməyə gedir. Burada mühasirəyə düşürlər. O, öz əsgərlərini xilas etmək üçün əlbəyaxa döyüşə girir. Neçə-neçə erməni quldurunu məhv edən cəsur döyüşçü qəhrəmanlıqla həlak olur. Bakının Şəhidlər xiyabanında dəfn edilmişdir. Evli idi. Dörd övladı yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı fərmanı ilə Ələkbər Həsən oğlu Əliyevə ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Xətai rayonundakı 204 saylı orta məktəb 1994-cü ildən onun adını daşıyır.